

# YUBİLEY
## Professor
## KƏLBƏLİYEV FAİQ İSFƏNDİYAR OĞLU
(anadan olmasının 70 illiyinə)

15 fevral 2007-ci ildə görkəmli alim, texnika elmləri doktoru, professor Faiq İsfəndiyar oğlu Kəlbəliyevin anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 48 ili tamam olur. F.İ.Kəlbəliyev 1937-ci ildə Naxçivan rayonunda anadan olub, 1954-cü ildə Naxçivan şəhərində orta məktəbi bitirib və həmin il Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) Energetika fakultəsinə daxil olmuşdur. O, 1959-ci ildə institutu müvəffəqiyyətlə bitirdirdən sonra təyinatla Azərbaycan EA-nın Elmi-tədqiqat Energetika institutuna işləməyə göndərilmişdir.

F.İ.Kəlbəliyev 1959 – 1961-ci illərdə Elmi-tədqiqat Energetika İnstitutunda «İstilik texnikası» laboratoriyasında kiçik elmi işçi vəzifəsində çalışmış və bu dövrdə ən aktual olan iki problemlə işləməyə cəlb edilmişdir:

1. Neftli laylardan termiki üsulla neftin ayrılması;
2. İstilik elektrik stansiyalarının buxar generatorlarında təbii qazın yandırılması və onun effektivliyi.

F.İ.Kəlbəliyev 1962–1964-cü illərdə Moskva şəhərində SSRİ EA-nın Energetika İnstitutunda aspiranturada təhsil almışdır. O, burada akademik M.A.Mixiev və t.e.d. professor P.İ.Povarninin rəhbərliyi altında bir necə karbohidrogenlərin istilik sabitliyi, onların yüksək temperaturlu səthləri soyutma qabiliyyəti və istilik mübadiləsi proseslərinin tədqiqilə məşqul olmuşdur. F.İ.Kəlbəliyev 1965-ci ildə bu institutda namizədlik dissertasiyasını müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsini almışdır. Bakıya qayıtdıqdan sonra 1965 – 1968-ci illərdə Azərbaycan Elmi-tədqiqat energetika institutunda əvvəl kiçik elmi işçi, sonra isə böyük elmi işçi vəzifəsində işləmişdir. O, burada təcrübi tədqiqatlar aparmaq üçün laboratoriya bazası yaratmış və suyun kritikdən aşağı və ondan yuxarı təzyiqlərində işləyən qurğuların temperatur rejimlərinin tədqiqi ilə məşqul olmuşdur.

F.İ.Kəlbəliyev 1985-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının müdafiə şurasında doktorluq dissertasiyasını müdafiə etmişdir.

F.İ.Kəlbəliyev 1968-ci ildən bu günə kimi Azərbaycan Dövlət Neft Akademiyasında calışır. O, dosent, professor və hazırda kafedra müdiri vəzifələrdə fəaliyyət göstərir.

Prof. F.İ.Kəlbəliyev bir cox fənlərin tədrisi üçün yazılan proqramların və dərs vəsaitinin müəlifidir. Belə dərsliklər «Buxar və qaz turbinli istilik elektrik stansiyaları», «İES-in layihələndirilməsinin texniki-iqtisadi əsasları», «İES-in prinsipal istilik sxeminin hesabı», «Elektrik stansiyasının energetik qurğuları» və başqalarıdır.

Pedoqoji faliyyətlə bərabər prof. F.İ.Kəlbəliyev bu illərdə İstilik Elektrik stansiyalarının faydalılığının artırılması, Energetik qurğuların temperatur rejimləri və onlarda istilik mübadiləsinin tədqiqi sahəsində ADNA-da elmi məktəb yaratmışdır. Bu elmi məktəbin fəliyəti nəticəsində ADNA-da 3- nəfər texnika elmləri doktoru və 20-dən artıq gənc mütəxəssis texnika elmləri namizədi alimlik dərəcəsini almaq üçün dissertasiya işi müdafiə etmişdirlər.

Bu gün də prof. F.İ.Kəlbəliyev gənc nəslin yetişməsində fəal iştirak edir, onun rəhbərliyi altında aparılan elmi işlərin nəticələri xarici ölkələrdə keçirilən müxtəlif beynəlxalq konfranslarda müzakirə olunur və tanınmış jurnallarda dərc olunur.

Prof. F.İ.Kəlbəliyev geniş elmi-pedoqoji və ictimai iş aparmaqla yanaşı Azərenerji ASC-in baş mütəxəsisi, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının ekspert şurasının üzvü, «Ekoenergetika» jurnalının baş redaktorunun müavini vəzifələrində çalışır.

Hörmətli professor F.İ.Kəlbəliyevi anadan olmasının 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, yeni elmi və pedoqoji yaradıcılıq nailiyyətləri arzulayırıq.

Redaksiya heyəti